


# Yay Olimpiadası Fransanın əsl simasını göstərdi

## Bu ölkədə baş verən rüsvayçılıq dünyada Parisə qarşı ikrah hissi yaratdı

Eyfel qülləsinin yaxınlığındakı Olimpiya bayrağının bayraq dirəyinə tərsinə asılması, stadionun diktorları KXDR nümayəndələrini Cənubi Koreyadan olan idmançılar kimi elan etmələri də ciddi müzakirə mövzusuna çevrildi. Tamaşaçıların bir qismi keçidin baş tutacağı yeri yaxşı görə bilmədikləri üçün hələ mərasim başlamamış tribunaları tərk etdi, digərləri isə mərasimi üstüaçıq tribunada leysan yağışı altında seyr etmək məcburiyyətində qaldı.

Olimpiadanın açılış mərasimində milli komandaların keçidi zamanı Fransa dövlətinə məxsus "France 2" telekanalının aparıcısı Loran Delausun səsləndirdiyi fikirlər də böyük qalmaqala səbəb olub. Azərbaycan və Ermənistan idmançılarının keçidi zamanı teleaparıcı ayrı-seçkilik edərək Azərbaycanı Ermənistanla hərbi toqquşmalarda günahlandırıb. Erməni idmançılar paraddan keçərkən "və təbii ki, bizim dostlarımız ermənilərdir. Ermənistan tarixən fransızların qəlbinə yaxın bir ölkədir. Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan Ordusunun əlinə keçməsi və itirilməsi ilə nəticələnib", - deyərək əslində Fransa dövlətinin siyasi mövqeyini ifadə etdi. Aparıcının Olimpiya Oyunlarının prinsiplərini heçə sayaraq siyasi mövqe nümayiş etdirməsi, ölkəmizin ünvanına səsləndirdiyi qərəzli və böhtan dolu fikirləri ciddi narazılıq yaradıb. Bununla bağlı Beynəlxalq Olimpiya Komitəsinə (BOK) şikayət ünvanlanıb.

→ 7

# Yay Olimpiadası Fransanın əsl simasını göstərdi

## Bu ölkədə baş verən rüsvayçılıq dünyada Parisə qarşı ikrah hissi yaratdı

**XXXIII Yay Olimpiya Oyunlarının açılışı zamanı saqqallı qadın və qadın paltarı geyinmiş kişilərin ifasında "Son şam yeməyi"nin parodiyası, xristianların dini hisslərinin təhqir olunması, İsa Məsihin etikadan kənar obrazının yaradılması bugünkü Fransa hakimiyyətinin əsl simasını təcəssüm etdirir. Açılış mərasimində görüntülənən rüsvayçılıq insanlarda qəzəb yaradaraq bu dövlətə qarşı ikrah hissi oyatdı.**




Əslində Təşkilat Komitəsi dünyanın liderlərinin iştirak etdiyi bir tədbirdə satanistlərin simvollarını nümayiş etdirməklə bu ölkəni idarə edənlərin mənəvi kimliklərini göstərib siyasi portretini cızdılar.

Xristianlığın zəngin tarixi olan Parisdə İsa Məsihin təsvirinin təhqiramiz olduğunu və bütün qırmızı xətlərin keçildiyini hətta ölkə yepiskopu kəskin tənqid edərək Fransanın utanmalı olduğunu bildirdi.

Eyfel qülləsinin yaxınlığındakı Olimpiya bayrağının bayraq dirəyinə tərsinə asılması, stadionun diktorları KXDR nümayəndələrini Cənubi Koreyadan olan idmançılar kimi elan etmələri də ciddi müzakirə mövzusuna çevrildi. Tamaşaçıların bir qismi keçidin baş tutacağı yeri yaxşı görə bilmədikləri üçün hələ mərasim başlamamış tribunaları tərk etdi, digərləri isə mərasimi üstüaçıq tribunada leysan yağışı altında seyr etmək məcburiyyətində qaldı.

Olimpiadanın açılış mərasimində milli komandaların keçidi zamanı Fransa dövlətinə məxsus "France 2" telekanalının aparıcısı Loran Delausun səsləndirdiyi fikirlər də böyük qalmaqala səbəb olub. Azərbaycan və Ermənistan idmançılarının keçidi zamanı teleaparıcı ayrı-seçkilik edərək Azərbaycanı Ermənistanla hərbi toqquşmalarda günahlandırıb. Erməni idmançılar paraddan keçərkən "və təbii ki, bizim dostlarımız ermənilərdir. Ermənistan tarixən fransızların qəlbinə yaxın bir ölkədir. Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan Ordusunun əlinə keçməsi və itirilməsi ilə nəticələnib", - deyərək əslində Fransa dövlətinin siyasi mövqeyini ifadə etdi. Aparıcının Olimpiya Oyunlarının prinsiplərini heçə sayaraq siyasi mövqe nümayiş etdirməsi, ölkəmizin ünvanına səsləndirdiyi qərəzli və böhtan dolu fikirləri ciddi narazılıq yaradıb. Bununla bağlı Beynəlxalq Olimpiya Komitəsinə (BOK) şikayət ünvanlanıb.

Uşaq təcavüzünə görə məhkum edilmiş hollandiyalı Stiven van de Veldenin Olimpiadada çimərlik voleybolu yarışında iştirakı da tamaşaçıların səs-küylü etirazına səbəb olub. Tamaşaçılar onun oyunu tərk etməsini istəsələr də, nə BOK, nə də Hollandiya komandasının nümayəndələri Stiven van de Veldenin iştirakına mane olmayıblar. Əksinə, Hollandiya onu nəinki milli komandaya seçərək qəhrəman edib, həm də ona digər iştirakçılarda olmayan səlahiyyətlər də verilib.

XXXIII Yay Olimpiya Oyunlarının açılışı ilə başlayan qalmaqal davam etməkdədir. Slovakiyanın baş nazirinin müavini Tomas Taraba feysbuk səhifəsində ölkəsinin bağlanış mərasimində iştirak etməyəcəyini yazıb: "Bağlanış mərasimində Slovakiyanı təmsil etməli idim. Lakin bu Olimpiada həmişə idmanın gözəlliyindən sui-istifadə edən, onu mütərəqqi siyasi teatra çevirən iyrənclik rəmzi olaraq qalacaq. Buna görə də bağlanış mərasimində iştirak etməmək qərarına gəldim".

Bakı Təşəbbüs Qrupu (BTQ) da Olimpiya Oyunları prinsiplərinin "Paris-2024"də pozulmasına dair bəyanat yayıb. Vurğulanıb ki, Fransa prezidenti Emmanuel Makron və onun hökuməti hazırda bu ölkədə keçirilən "Paris-2024" Olimpiya Oyunlarını "sülh və ümid anı" kimi təqdim etsə də, Fransanın kolonial və neokolonial siyasəti bunun əksini deyir.

Bəyanatda deyilir: "Olimpiya Xartiyasında qeyd edilir ki, Olimpiya Hərəkatının məqsədi insan ləyaqətinin qorunmasına xidmət edən dinc bir cəmiyyəti təşviq etmək üçün idmanı bəşəriyyətin harmonik inkişafına yönəltməkdir. Polineziya, Korsika, Melaneziya, Karib və Antil adalar qrupundan olan müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkat nümayəndələrindən əldə edilmiş məlumatlara əsasən, məşğulluq sektorunda və mənzillərin əldə edilməsinə çıxışda ayrı-seçkilik, eləcə də təbii sərvətlərin istismarı və ya məsələn, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya halları qeydə alınıb".

BTQ bəyanatda Olimpiadanın ruhuna tamamilə zidd olan bir sıra halları diqqətə çəkib. Bunlar müvafiq ərazilərdə fransız monopolistlərinin xeyrinə olan zəif iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi, əhalinin həddindən artıq ərzaq asılılığı (qida məhsullarının 80 faizdən çoxu Fransadan gəlir), yoxsulluq (Fransız Qvianasında əhalinin 50 faizi yoxsulluq həddi altında yaşayır) və hər cür iğtişaşlara (zorakılıq, silah və narkotik ticarəti) səbəb olan kütləvi işsizlikdir ki, bu da ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alır.

Fransanı kəskin tənqid edənlərin sırasında ABŞ-nin Nümayəndələr Palatasının sözçüsü Mayk Conson, Macarıstanın Baş naziri Viktor Orban, "Tesla"nın baş direktoru İlon Mask, eləcə də italiyalı siyasətçilər və parlamentarilər də var. Baş verənlər deməyə əsas verir ki, dünya kolonializm tarixinin qanlı cinayətlərinin müəlliflərindən biri olan Fransa prezidenti Emmanuel Makronun apardığı səhv siyasətin nəticəsi olaraq o, hətta siyasi nüfuzunu itirib.

Fransanın müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalarında yaşayan insanlar Beynəlxalq Azadlıq Cəbhəsi yaradaraq müstəqillik uğrunda mübarizənin yeni mərhələsinə başlayıblar. Emmanuel Makronun israrla davam etdirdiyi səhv siyasət Fransa üçün yaxşı heç nə vəd etmir. Müstəqillik uğrunda qətiyyətli mübarizəyə qalxan xalqların Fransanın əsarətindən qurtulacağı çox da uzaqda deyil.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*




Azərbaycan.- 2024.- 3 avqust (№ 163).- S.1, 7.